**UOT 1(091)**

**Elçin ƏHMƏDOV**
*Dissertant, AMEA Fəlsəfə İnstitutu*

# AZƏRBAYCAN – MƏDƏNİYYƏTLƏRARASI DİALOQ ÖLKƏSİ KİMİ*

Azərbaycan Respublikasında son illər sosial, iqtisadi, elm, təhsil, mədəni və digər sahələrdə həyata keçirilən məqsədyönlü məntiqli siyasət, irimiqyaslı fundamental islahatlar dövlətimizi sürətlə dünyanın inkişaf etmiş ölkələri sırasına yaxınlaşdırmış, bir çox sahələrdə böyük uğurlar əldə edilmiş, əhalinin sosial rifah halı xeyli dərəcədə yaxşılaşmışdır. Dövlətimiz dünya siyasəti arenasında öz yerini möhkəmləndirmiş, siyasi və iqtisadi müstəqilliyimizin qorunması istiqamətində hazırda balanslaşdırılmış siyasət həyata keçirilməkdədir. Dövlət tərəfindən həyata keçirilən məqsədyönlü işlərin əhəmiyyətini vurğulamaqla yanaşı, qeyd etmək lazımdır ki, ölkə əhalisinin mənəvi həyatı, əxlaqi normaların, milli-mədəni dəyərlərin qorunması, vətəndaşların, xüsusən gənclərin milli vətənpərvərlik ruhunda tərbiyəsi və ümumən dövlətin ideoloji əsaslarının formalaşdırılması istiqamətində görüləcək işlər çoxdur.

Azərbaycanda müstəqil cəmiyyətin qurulması siyasi, sosial-iqtisadi, təhsil, hüquq və s. bu kimi sferalarda çoxlu sayda islahatlarla müşayiət olunmuşdur. İslahatların elan olunması maksimum əlverişli şərait rejimini, dövlət büdcəsindən əlavə maliyyələşdirilməni, böyük beynəlxalq təşkilatlar tərəfindən əhəmiyyətli kömək göstərilməsini nəzərdə tuturdu. Etiraf etmək lazımdır ki, mədəniyyət siyasəti anlayışı özü həm Azərbaycanda, həm də bütün dünyada nisbətən yeni anlayışdır. Mədəniyyət siyasətinin bir elm kimi əsasını qoyanlardan biri Fransanın əfsanəvi mədəniyyət naziri, gözəl fransız yazıçısı Andre Malro olmuşdur (10). 60-cı illərin fransız cəmiyyətində mədəniyyət haqqında yeni anlayışın, onun inkişafının strategiyasının, cəmiyyətdə yeni rolunun formalaşdırılması ona nəsib olmuşdur. Şübhəsiz ki, bu ideyalar cəmiyyətin özünün belə dəyişikliklərə həvəsini, hazırlığını və istəyini əks etdirirdi.

Müasirləşən Azərbaycanın qlobal səviyyədə sosiomədəni proseslərin dərinləşməsi, mədəniyyətlərarası qarşılıqlı dialoqun, ikitərəfli və çoxtərəfli mədəni əməkdaşlığın inkişafı, müxtəlif dinə mənsub olan xalqlar və millətlər arasında mehriban təmasların yaranması istiqamətində fəaliyyəti həmçinin dünya xəritəsində geosiyasi və geomədəni vəziyyəti nüfuzlu beynəlxalq qurumların ölkəmizin bu sahədə irəli sürdüyü təşəbbüslərinin dəstəklənməsinə səbəb olmuşdur. Bu amillər ölkəmizin beynəlxalq mədəni proseslərdə nüfuzunu artırmaqla yanaşı, beynəlxalq səviyyədə mədəniyyətlərarası dialoq ölkəsi kimi tanınmasına və hamı tərəfindən qəbul olunmasına səbəb olmuşdur.

Qloballaşma ayrı-ayrı mədəniyyətləri və milli ənənələri, ideyaları, milli-mənəvi dəyərləri ümumdünya sistemi daxilinə qataraq sivilizasiyaların dialoqu üçün də şərait yaradır. Mədəniyyətlərin dialoqunun cəmiyyətin inkişafında mühüm əhəmiyyəti danılmazdır. Xalqların bir-birini anlaması üçün göstərdikləri təşəbbüslər, bu anlaşmaya hazır olmaq məqamları çox çətin və mürəkkəb məsələdir (1, s. 99). Belə dialoq zamanı qarşılıqlı anlaşma və ümumbəşəri əsaslar axtarışı konsensus, ayrı-ayrı mədəniyyətlərlə, ənənələrlə və dəyərlər sistemi ilə rastlaşarkən onları inkar etmədən öz ənənələri və mədəniyyətinə sadiq qalaraq başqa dəyərlərə hörmət etmək və anlaşmaq bacarığı tələb olunur. Qloballaşma prosesində cəmiyyətdə milli-mənəvi dəyərlər və din amili mühüm əhəmiyyət kəsb etməkdədir. Lakin təfəkkürün və informasiyanın sirkulyasiyası, qlobal təbəddülatlar və proqnozlaşdırılan «sivilizasiyaların toqquşması» erasında yalnız

* Məqalə fəlsəfə ü.e.d. Dilarə Müslümzadə tərəfindən çapa məsləhət görülüb.

konfessiyalararası dialoq, tolerantlıq milli eyniyyəti qoruyub saxlamağa və onun postindustrial epoxaya keçməsinə imkan yarada bilər (2,s.5).

2008-ci il 2-3 dekabr tarixində Bakıda Avropa Şurasına üzv dövlətlərin mədəniyyət nazirlərinin konfransında "Mədəniyyətlərarası dialoqun təşviqinə dair Bakı Bəyannaməsi" qəbul olunmuş, "Bakı prosesi"nin və bu prosesin uğurla davam etdirilməsi məqsədilə Azərbaycan tərəfindən təklif edilən "Sənətçilər dialoq naminə" layihəsinin əsası qoyulmuşdur (9). Konfransın keçirilməsində əsas məqsədlərdən biri Avropa dəyərlərinin nəinki Avropada, hətta qonşu region-larda da yayılmasını, insan hüquqları, qanunun aliliyi, demokratik idarəetmə və s. bu kimi mühüm normaların dialoq vasitəsilə beynəlxalq təşviqini təmin etmək olmuşdur.

"Sənətçilər dialoq naminə" layihəsinin əsas məqsədi Avropa və onun qonşu regionlarında istedadlı insanların, mədəniyyət sahəsində çalışan şəxslərin hüquqlarının qorunması, onların beynəlxalq səviyyədə mədəni proseslərdə iştirakının təmin edilməsi və onların vasitəsilə mədəniyyətlərarası dialoqun təşviq olunmasıdır.

Ölkəmiz İslam və Qərb dünyası ilə balanslı əməkdaşlıq münasibətləri qurmuşdur. İslam dəyərlərinin əsas mərkəzlərindən olan ölkəmizdə dövlət tərəfindən İslam mədəniyyətinin qorunması və onun daha da inkişaf etdirilməsi istiqamətində silsilə tədbirlər həyata keçirlir.

Bakıda Heydər Əliyev Fondunun dəstəyi ilə keçirilən Beynəlxalq Muğam Festivalında Asiya, Avropa və Amerika qitələrindən, Misir, İraq, İran, İspaniya, Hollandiya, Fransa, Macarıstan, ABŞ və digər ölkələrdən muğam ifaçıları və musiqişünaslar iştirak etmişlər. Bu mənada festival göstərdi ki, muğam sənəti müxtəlif sivilizasiya və mədəniyyətlər arasında musiqi körpüsü və dialoq vasitəsi ola bilər. Bu festivalların hər il davam etməsi və buraya yeni-yeni ölkələrin qatılması və festivalı dəstəkləməsi digər xalqların nümayəndələrinin Azərbaycan muğamına olan rəğbətini daha geniş və ətraflı nümayiş etdirdi. Bu fondun həyata keçirdiyi çoxşaxəli layihələr də diqqətçəkəndir. Fond Azərbaycanın muğam sənətinin, eləcə də çoxəsrlik abidələrinin qorunması, mədəniyyətimizin, milli-mənəvi dəyərlərimizin ölkə hüdudlarından kənarda təbliğinə böyük qayğı göstərir. Bütün bu tədbirlərin əsasında isə mütləq milli-mənəvi dəyərlər sistemi dayanır və ona dəlalət edir ki, Azərbaycan xalqı klassik Avropa dəyərlərinə yüksək qiymət verməklə öz milli-mənəvi dünyasını zənginləşdirməkdədir. Bir azərbaycanlı kimi milli-mənəvi dəyərlərimiz barəsində düşünərkən sevinir, qürurlanırıq. Dərindən düşünsək, bir daha şahidi olarıq ki, milli-mənəvi dəyərlərimiz həqiqətən bizim qürur mənbəyimizdir (3, s.46).

Prezident İlham Əliyevin bilavasitə dəstəyi ilə Azərbaycanın beynəlxalq tədbirlərə ev sahibliyi etməsinin əsas məqsədlərindən biri də həm Avropa Şurasına və həm İSESKO-ya üzv olan yeganə dövlət olmaq imkanından bəhrələnərək Avropa ilə İslam dünyası arasında mədəniyyət körpüsü rolunu oynamaqla və iki sivilizasiya arasında mədəniyyətlərarası dialoqun inkişaf etdirilməsini nəzərdə tutan "Bakı prosesi"nin əsasını qoymaqla Azərbaycanın beynəlxalq nüfuzunu daha da gücləndirməkdir. Beləliklə, bu tədbirlər həm İslam, həm də Avropa mədəniyyətini özündə ehtiva edən Azərbaycan mədəniyyətinin beynəlxalq səviyyədə təbliği, Azərbaycanın nüfuzunun yüksəldilməsi və beynəlxalq proseslərdə əhəmiyyətini artırmaqla yanaşı, Azərbaycanın qitələrarası və sivilizasiyalararası əməkdaşlıq məsələlərində çox mühüm dövlət kimi qəbul olunmasına, həmçinin Azərbaycanın Avropaya inteqrasiyasına xidmət edir.

Bütün bunlar, Azərbaycan mədəniyyət diplomatiyasının mühüm nailiyyətləridir. Unutmamalıyıq ki, hər bir Azərbaycan vətəndaşı Azərbaycan mədəniyyətinin simasıdır. Hər bir xalqın qiyməti onun mədəniyyəti ilə ölçüldüyü üçün Azərbaycan mədəniyyəti də hər bir azərbaycanlının keçmişinin, bu gününün və gələcəyinin dəyəridir.

Mədəniyyətin ən böyük xüsusiyyətlərindən biri onun canlı olması, yəni daima inkişafda, dəyişimdə olmasıdır. Mədəniyyət necə ki, bizdən əvvəlkilərin bizə qoyduğu bir mirasdırsa, bununla yanaşı, biz də bu mədəniyyəti zamana uyğun dəyişir, ona öz töhfələrimizi verir və gələcək nəsillərə göndəririk (4,s.7-16).

Müstəqillik dövründə Azərbaycan Respublikası sosial-mədəni tərəqqinin yeni mərhələsinə yüksələ bilmişdir. İqtisadiyyatın surətli inkişafı, şəhərlərin və kəndlərin abadlaşdırılması, sahibkarlığın, orta və kiçik biznesin, turizm sənayesinin quruculuğu, ölkənin müdafiə potensialının qüvvətləndirilməsi, dövlətin milli, vətəndaşların isə şəxsi təhlükəsizliyinin artırılması, insan hüquqlarının müdafiəsi, vicdan azadlığının təmin olunması bizim mühüm sosial-mədəni nailiyyətlərimizdir.

Elmin inkişafı, yeni orta məktəblərin kütləvi tikintisi, yeni ali məktəblərin açılması, incəsənətin inkişafı, mədəni irsin qorunması, gənclərin, qadınların və uşaqların inkişafı, idmanın tərəqqisi, milli olimpiya komplekslərinin açılması cəmiyyətimizin və dövlətimizin bu gününə və gələcəyinə xidmət edir (10).

Daxili və xarici siyasətimizdə əldə etdiyimiz nailiyyətlər Azərbaycan xalqının milli qürur hissini möhkəmləndirmiş, dövlətimizin beynəlxalq nüfuzunun yüksəlməsini təmin etmiş, Azərbaycanın düzgün strategiyasının, respublikada dövlətçilik mədəniyyətinin inkişafının parlaq təzahürü olmuşdur.

Müstəqil Azərbaycanda həyata keçirilən mədəniyyət siyasəti ölkəmizdə elmin, təhsilin, incəsənətin, texnologiyaınn, iqtisadiyyatın vəhdət üzvü sistem kimi effektiv inkişafı, sosial həyatın yüksək keyfiyyəti, davamlı sosial-mədəni tərəqqi, vətənimizin daxili və beynəlxalq təhlükəsizliyi, milli dəyərlərimizin istehsalı, qorunub saxlanması, istehlakı, yayılması və cəmiyyətdə mənimsənilməsi prosesinin təmin olunması əlverişli şəraitin yaradılması ilə bağlıdır (10). Bu missiyanı uğurla yerinə yetirmək üçün mədəniyyət siyasəti insanlarımızın fəal vətəndaş mövqeyini formalaşdırmalı, onları həyata passiv uyğunlaşmaq tərzində yox, gerçəkliyin milli maraqlarımıza uyğun mütərəqqi, fəal, yaradıcı tərzdə dəyişdirməsinə səfərbər etməlidir.

Belə bir elmi yanaşma milli mədəniyyətimizin bütün sahələrinin - təhsil və tərbiyə, elm və texnologiya, incəsənət, ideologiya, həyat tərzi və həyatı təminetmə sistemi, təşkiletmə və idarəetmə, daxili siyasət, ictimai və beynəlxalq münasibətlər, etika, hüquq, din, iqtisadiyyat və maliyyə, informasiya və mətbuat - yeni mədəniyyət siyasəti əsasında tam sosial sistem kimi dövlət tərəfindən dinamik və effektiv idarə edilməsi üçün əlverişli şərait yaradacaq. Bu baxımdan yeni mədəniyyət siyasəti intellektual, mənəvi-etik, dövlətçilik, hüquqi, idarəetmə, hərbi, istehlak, məişət, ictimai və beynəlxalq münasibətlər mədəniyyətimizin sürətlə inkişafına təkan verməlidir (5, s. 140). Mahiyyətcə, sosial-mədəni siyasət olaraq o mədəni irsin qorunmasma, bədii mədəniyyətin, istehsalat mədəniyyətinin, məişət mədəniyyətinin, səhiyyə, ekologiya, fiziki mədəniyyət, idman, turizm, kitab nəşri və insan həyatının digər fəaliyyət sahələrinin inkişafına yardım etməlidir.

Azərbaycanın hərtərəfli inkişafı üçün əlverişli obyektiv-tarixi şərtlər mövcuddur - müstəqil ölkəmizin təbii-coğrafi və müasir tarixi şəraiti, xalqımızın genetik kodu, demokratik cəmiyyət və hüquqi dövlət quran cəmiyyətimizin sosial mühiti, nəhayət, geniş beynəlxalq mədəni mübadilə üçün olan imkanlarımız. Yeni Azərbaycan Respublikasının demokratik prinsiplər əsasında qurulması insanların sərbəst inkişafı, onların potensialının - özləri, ailələri, cəmiyyətin inkişafı və dövlətin qüdrətli olması, şəxsiyyət və liderlər kapitalının formalaşması və inkişafı üçün obyektiv tarixi-hüquqi imkanlar yaratmışdır.

Vətəndaş cəmiyyəti şəraitində Azərbaycanın rəqabətədavamlı və təhlükəsiz inkişafını təmin etmək üçün dövlət xalqımızın potensial imkanlarını nəzərə alaraq, dünyanın aparıcı ölkələrinin sosial-mədəni, o cümlədən iqtisadi səviyyəsinə yüksəlməsini mühüm bir məqsəd kimi qarşımıza qoymuşdur (6, s.283) Bu platformadan çıxış edərək dövlətimizin mədəniyyət siyasəti müasir şəraitdə ən mühüm əhəmiyyət kəsb edən strateji problemin həll edilməsinə nail olmalıdır: həmin ölkələrin inkişaf templərindən heç olmasa onda bir faiz irəli olmağımız, onların fəaliyyət keyfiyyətindən geri qalmamağımız şərti ilə. Bu problemlərin real həlli Azərbaycanda əmək mədəniyyətinin köklü halda dəyişdirilməsini, xalqın sosial-mədəni kodunun emosional

mədəniyyətin üstünlüyündən əqli mədəniyyətin üstünlüyü istiqamətinə dəyişməsini, hər bir şəxsin ayrı-ayrılıqda məsuliyyət mədəniyyətinin yüksəlməsini, cəmiyyətin isə bütövlükdə intellektual, mənəvi, hüquqi və idarəetmə mədəniyyətinin qabaqlayıcı inkişafının təmin olunmasını tələb edir.

Yeni mədəniyyət siyasəti ideoloji üsullarla vətəndaşların zamanla artan ruhi və maddi tələbatlarının ödənilməsinə yönəlmiş fəaliyyətin həyata keçirilməsini təmin etməlidir. Bu siyasət intensiv amillər hesabına əmək məhsuldarlığının ümumi milli məhsulun artırılmasında, iqtisadiyyatın struktu-runun təkmilləşdirilməsində, dövlətin hüquqi və etik sisteminin effektivliyinin artırılmasında, səhiyyə, ekologiya, turizm, fiziki mədəniyyət və idman sahələrinin inkişaf etdirilməsində, gənc nəslin saf tərbiyə edilməsində mühüm rol oynayır. Azərbaycanın mədəniyyət siyasəti milli-əxlaqi dəyərlərimizin, Qərbin və Şərqin sınaqdan çıxmış mədəni dəyərlərinin və inkişaf təcrübəsinin sintezi əsasında formalaşıb həyata keçirilir. Eyni zamanda bu siyasət üstünlüklər xarakteri daşıyan, mədəni dəyərlərdən fərqli olan və mütləq sosial icranı tələb edən hüquqi normalara, qaydalar və qanunçuluğa da əsaslı təsir göstərir.

Bu baxımdan mənəvi mədəniyyətimizin - böyüklərə hörmət, uşaqlara məhəbbət, sadiq olmaq, səbirli olmaq, qonaqpərvərliklə yanaşı məsuliyyət mədəniyyəti, şəxsiyyətə hörmət, dürüstlüyün cəmiyyətdə mütləq etik normaya çevrilməsi vacib milli məqsədlərdən biri kimi hər bir vətəndaş tərəfindən dəstəklənməli və bərqərar olunmalıdır. Bununla yanaşı, milli irsimiz, sağlam mentalitetimiz, ənənələrimiz və dinimizin qorunub saxlanılması prosesi, elmin, keyfiyyətli təhsilin və kulturoloji maarifin inkişafı mütərəqqi innovasiyaların yayılması ilə müşahidə olunmalıdır.

Dünya sivilizasiyasının tarixi göstərir ki, hər bir ölkənin sosial-mədəni tərəqqisinin templəri və keyfiyyəti cəmiyyətin intellektual mədəniyyətinə düz, -cəhalət səviyyəsinə isə tərsmütənasibdir. Bu prosesə əsas təsir göstərən - elm, təhsil, maarif, siyasət, idarəetmə, iqtisadiyyat, mənəviyyat, hüquq, din, dəyərlər sistemi, maraqlar, fəaliyyət keyfiyyəti amillərini göstərmək olar.

Vətəndaş cəmiyyəti şəraitində Azərbaycan Respublikasının inkişaf tələbatları cəmiyyətin modernləşməsini təmin edən ölkə mədəniyyətinin sistemi və strukturunun effektiv islahatını və davamlı təkmilləşdirilməsi vəzifəsini irəli sürmüşdür. Bu islahatlar çərçivəsində zamanın tələblərinə və demokratik Azərbaycanın milli maraqlarına cavab verən, milli mədəniyyətimizin inkişafının idarə olunması sahəsində fəaliyyət göstərən mütəxəssislərin seçilməsi, hazırlanması və ixtisasının artırılması texnologiyalarının təkmilləşdirilməsi, mövcud idarələrin yenidən qurulması, yeni təşkilatların isə yaradılmasının idarəetmə və hüquqi cəhətdən təmin olunması tələb olunur (10).

Yeni mədəniyyət siyasəti milli mədəniyyətimizin elmi-dərkedici, ideoloji, praktiki və proqnostik funksiyalarını, ənənəvi mədəniyyətlə novator mədəniyyətinin sintezinə arxalanan mədəniyyətimizin genezisini təmin etməklə, müstəqil dövlətimizin qüdrətini daim artırmalıdır. Bu prosesin yüksək səviyyədə təmin olunması üçün Azərbaycanda və başqa ölkələrdə əldə olunmuş elmi nailiyyətlər əsasında mədəniyyət siyasətinin elmi mənbəyini və vasitəsini təşkil edən kulturoloji tədqiqatlar, kulturoloji təhsil və kulturoloji maarifçilik dövlət tərəfindən xüsusi ilə dəstəklənməlidir. Elmi nailiyyətlərin cəmiyyətdə sürətlə yayılması Azərbaycanın tərəqqi templərinin və fəaliyyət keyfiyyətinin artmasına, dövlətimizin rəqabətədözümlü və təhlükəsiz inkişafı, ölkəmizin rifahının və həyat keyfiyyətinin daha da yüksəlməsi üçün əlverişli zəmin yaradacaq.

Müasir dövrdə demokratik dövlətin əxlaqi dəyərlərə və normalara üstünlük verilən mədəni siyasətinin məqsədi xalqın mədəni inkişafına yardım etməkdir. Buna görə də demokratik ölkələrdə bu siyasət vətəndaşların yaradıcı qüvvələri və bacarıqlarının inkişafı üçün əlverişli iqtisadi, təşkilati və mənəvi-psixoloji şərait yaradılmasını təmin edir. Bu cür siyasət etik yönümlüdür və nəinki ölkə daxilində, habelə beynəlxalq miqyasda ictimai münasibətlərin

plüralizm və polisentrizm əsasında harmonikləşdirilməsini təmin edir. Özünün sosial vəzifələrini yerinə yetirərək, demokratik ölkələrin mədəniyyət siyasəti cəmiyyət və dövlət kimi tarixi sosial institutların daimi inkişafı və təkmilləşdirilməsini təmin edir.

Demokratik mədəniyyətin dəyərlər sisteminin təkmilləşdirilməsi yolu ilə o, ölkə vətəndaşlarının davranışının seçdikləri siyasi institutlar və demokratiya normalarına şüurlu və könüllü tabe edilməsi üçün zəmin yaradır, vətəndaş cəmiyyətinin idarə olunmasında qeyri-hökumət təşkilatları üçün geniş yol və bərabər imkanlar açır (7, s.24-26). Vətəndaş cəmiyyətlərində mədəniyyət siyasəti həmçinin ölkənin sosial-mədəni inkişafının mədəni imperativlərinin istiqamətinin uyğunluğuna, inkişaf sürəti və prioritetlərə riayət edilməsinə sosial nəzarətin həyata keçirilməsini təmin etməlidir. Bu nəzarət həm dövlət-hüquqi və siyasi institutlar, həm də qeyri-hökumət, ictimai institutların köməyi ilə yerinə yetirilir.

Dövlət siyasətinin səmərəliliyi mənəvi mədəniyyət sahəsinin ideoloji, texnoloji və təşkilati səviyyələrdə idarəetmə sistemlərinin səmərəliliyindən asılıdır. Əgər idarəetmənin məqsədi mədəniyyətin bütün sahələrinin ahəngdar, qarşılıqlı surətdə əlaqəli inkişafıdırsa, onda onun əsas fəaliyyət sahəsi - mədəniyyətin müasir "mənəvi istehsalın" əsas qüvvəsini təşkil edən təhsil, elm və incəsənət kimi aparıcı sosial institutlarının inkişafının koordinasiyası və tənzimlənməsidir. Bundan ötrü dövlət hüquqi, təşkilati və maddi vasitələrdən istifadə edir.

Demokratik cəmiyyətin idarə olunması, P.Kozlovskinin fikrincə, hər bir şəxsin və bütünlükdə cəmiyyətin maraqlarının nəzərə alınmasını tələb edir və eyni zamanda onların ölkənin sosial-mədəni inkişafının tələbatları və qanunauyğunluqlarına müvafiq harmonikləşdirilməsini təmin etməlidir (8,s.122). Əxlaqi dəyərlərin idarə edilməsinin əsas məqsədi özündə milli, ümumsosial və ümumbəşər dəyərlər məcmusu olan "yüksək" mədəniyyətli şəxsiyyətin formalaşmasına kömək etməkdir. Burada əsas yeri ziyalılar və bütün xalqın azad yaradıcı fəaliyyəti, vətəndaşların mədəni dəyərləri, etik normaları və mədəni standartları azad seçmələri və mənimsəmələri üçün əlverişli şəraitin yaradılmasını təmin edən monitorinq və çevik tənzimləmə, habelə mədəniyyətin inkişafı üçün maddi və hüquqi bazanın yaradılması tutur.

Vətəndaş cəmiyyəti və mədəni inteqrasiya prosesinin geniş vüsət aldığı, qaçılmaz reallığa çevrildiyi indiki dövrdə milli mədəniyyətlərin qorunub inkişaf etdirilməsi həmişəkindən daha çox diqqət və qayğı tələb edir. Çünki mürəkkəb və heç də birmənalı qiymətləndirilməyən qloballaşma prosesinin təzahürləri və perspektivləri mədəni dünyanı düşündürür. Bu prosesdə beynəlxalq hüquq prinsipləri və normalarınm aliliyi, dəyişikliklərin təkamül xarakteri qarşılıqlı etimad və ümumbəşəri dəyərlərə sədaqətlə yanaşı, hər bir ölkənin səciyyəvi milli cəhətlərinin də nəzərə alınmasını sivilizasiyanm müasir səviyyəsi tələb edir. Başqa sözlə, vətəndaş cəmiyyəti mahiyyət etibarilə dövlətlərin sabit inkişafının, bütövlüyünün və idarəetmə sistemlərinin stabilləşməsinin təmin olunmasına, mədəni-iqtisadi münasibətlərdə ayrı-seçkiliyin aradan qaldırılmasına, xalqların rifah halının yüksəldilməsinə xidmət etməlidir. Təbii ki, vətəndaş cəmiyyətinın bir çox ölkələr üçün yaratdığı problemlər bizi də narahat edir və həmin problemlərin doğurduğu mənfi təzahürlər cəmiyyət həyatında, mədəniyyətimizin bütün sahələrində aşkar müşahidə edilməkdədir.

XX əsrin sonunda sosial-siyasi, sosial-iqtisadi problemlərin artması, dünyanı əhatə edən qloballaşma prosesinin sürəti, müxtəlif tendensiyaların güclənməsi müasir insan probleminə, onun mənəviyyat məsələsinə diqqəti daha da artırır, gələcək təhlükələrin qarşısının alınmasında, vətəndaş cəmiyyətinin institutlarının qorunmasında dini-mənəvi, əxlaqi dəyərlərin rolunun zəruriliyini diqtə edir. Bəşəriyyətin arzusunda olduğu sosial tərəqqinin əsas məqamları – insanın sosial rifah halının yaxşılaşması, insan hüquqlarına hörmət olunması, cəmiyyətdə qarşıdurmanın zəifləməsi, dini, milli, etnik, siyasi tolerantlığın bərqərar olması, siyasi demokratiya və söz azadlığına əməl olunması, hüquqi dövlətin inkişafı, insani münasibətlərin daha da təkmilləşməsi və mənəvi dəyərlərin qorunub nəsildən-nəslə ötürülməsi günün əsas reallıqlarıdır.

**Açar sözlər:** *mədəniyyətlərarası dialoq, mədəniyyət siyasəti, milli mədəniyyət, bəşəri dəyərlər, beynəlxalq tədbirlər, dövlət, vətəndaş cəmiyyəti*

## İstifadə olunmuş ədəbiyyat

1.Rüstəmova A. İctimai inkişaf və dil. Bakı: Təknur, 2012.

2.Моррос Г. Мои политические мысли. М.: Наука, 1986.

3.Xaqaniqızı D. Milli-mənəvi dəyərlər hər bir vətəndaşın qürur mənbəyidir// "Təhsil problemləri" jurnalı, 2 iyul 2013-cü il.

4.Məmmədzadə İ. İnformasiya cəmiyyətinə aparan yol: modernləşmə və Azərbaycan elmi qarşısında duran problemlər, vəzifələr. "Strateji təhlil." Azərbaycanın daxili və xarici siyasəti, beynəlxalq münasibətlər üzrə analitik jurnalı. İyul – Sentyabr 2010, № 1 (1).

5.Məmmədova M. Keçid dövründə mənəvi-mədəni proses və şəxsiyyətin tərbiyəsi // Dirçəliş- XXI əsr, 2003.

6. Bağırov Ş. Vətəndaş cəmiyyəti quruculuğu//Sosial-siyasi problemlər.IX buraxılış.Bakı: ADPU, 2003.

7. «III sektor» jurnalı, 2004, № 5.

8. Козловский П. Общество и государство: неизбежный дуализм.М.,1998.

9. www.prezident.az

10. www.science.az

**Эльчин АХМЕДОВ**

# АЗЕРБАЙДЖАН КАК СТРАНА МЕЖКУЛЬТУРНОГО ДИАЛОГА

## Резюме

В статье Азербайджан характеризуется как страна, стремящаяся к межкультурному диалогу в мире. Отмечается, что для осуществления такого диалога в стране проводятся весомые работы и мероприятия международного значения. Автор связывает их реализацию с проведением в республике правильной культурной политики осуществлении диалога наряду с государством большую роль играют институты гражданского общества. По мнению автора, реализация и расширение процесса интеграции гражданского общест- ва и культуры для сохранения и развития национальных культур требует особой заботы.

**Ключевые слова:** *межкультурный диалог, культурная политика, национальная политика общечеловеческие ценности, международные мероприятия, государства, гражданское общество.*

**Elchin AHMEDOV**

## AZERBAIJAN AS A COUNTRY OF INTERCULTURAL DIALOGUE

**Summary**

In the article Azerbaijan is characterized as a country striving for intercultural dialogue in the world. It is noted that for implementation of such dialogue in the country there are carried out considerable works and arrangements of international significance. The author relates their realization with holding the right cultural politics. Alongside with the states the institutes of civil society play a great role in bringing to life dialogue. In author's opinion, realization and extending the process of integration of a civil society and for culture, for preservation and development national cultures demand special care.

**Keywords:** *intercultural dialogue, cultural politics, national politics, all human values, international arrangements, states, civil society.*